*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 9, 2025*
*Səh. 77-85*

https://doi.org/10.62837/2025.9.77

**dosent Səidə V.ABBASOVA**
**Bakı Dövlət Universiteti**

# KOMMUNİKASİYA ZAMANI NİTQ ETİKETLƏRİNİN KATEQORİYA VƏ XÜSUSİYYƏTLƏRİ

**Açar sözlər:** nitq etiketi, mədəniyyət, kommunikasiya, ünsiyyət, norma, müraciyət, işgüzar etika, akademik etika, etiket normaları.

**Ключевые слова:** речевой этикет, культура, коммуникация, общение, норма, обращение, деловой этикет, этические нормы.

**Keywords:** speech etiquette, culture, communication, norm, appeal, business ethics, academic ethics, etiquette norms.

Etika – ictimai şüur formalarından biri kimi, əxlaq, tərbiyə və mənəviyyat haqqında nəzəriyyədir. Etika insanın daxilini, mənəvi zənginliyini, əxlaqi normalarını təcəssüm edir.

Həmçinin hər hansı sinfin, cəmiyyətin, ictimai təşkilatın "əxlaq qaydaları", "davranış formaları" kimi də nəzərdə tutulur. [1.səh.65]

Nitq etiketinin ünsiyyət prosesi ilə əlagəsi də şübhəsizdir və onun elementləri olmadan heş bir söhbət baş tutmaz. Nitq etiketi qaydalarına riayət edərək danışan öz fikirlərini həmsöhbətinə düzgün çatdırmaq, kommunikativ məqsədinə nail olmaq imkanı əldə edir.

Nitq etiketi bacarıqlarına yiyələnmək üçün linqvistika, psixologiya, mədəniyyət tarixi kimi elm sahələrinə aid biliklərə yiyələnmək lazımdır. Mədəni ünsiyyət bacarıqlarının uğurlu realizəsinin əsasında nitq etiketlərinin formulları durur.

Nitq etiketləri işlənmə sferasına görə də fərqlənir. Məsələn işgüzar nitq etiketləri, akademik nitq etiketləri. [2.səh.97]

Nitq etiketləri və etika bir-biri ilə qarşılıqlı münasibətdə olan iki anlayışdır. Daha doğrusu nitq etiketlərinin əsasında müəyyən mənada etika, əxlaq dayanır.
Akademik nitq etiketləri – bütün nitq etiketi vasitələrinin və onlardan müəyyən vəzifələrdə istifadə qaydalarının məcmusudur.

Elmi akademik ünsiyyətin nitq etiketləri akademik mühitdə istifadə olunan dil vahidləri və ümumən qəbul olunmuş nitq etiketlərinin cəmindən ibarətdir. Bu nitq etiketləri akademik mühitdə söylənilən fikirlərin, mülahizələrin ifadəsi üçün tərtib olunmuş etiketlərdir.
Akademik mühitdə istifadə olunan nitq etiketləri müasir Azərbaycan dilinin qayda və normalarını və akademik nitq etiketlərinin tələblərini özündə birləşdirir. [3.səh.197]

Fikrin şərh olunması, təqdimat qaydası, özündən əvvəlki mənbələrə istinadlar, opponentlərə etirazlar və daha çoxunu özündə əks etdirən elmi nitqdə qəbul olunmuş

etiket tələbləri sistemi elmi ictimaiyyətin üzvləri arasında şifahi ünsiyyətin prinsiplərini müəyyən edir. Şifahi ünsiyyət isə öz növbəsində, ümumiyyətlə ünsiyyətin paralinqvistik səviyyəsinə aid nitq etiketlərinin tələbləri ilə tənzimlənir. Məsələn, akademik nitq etiketlərində çox canlı mimika və jestlərdən çəkinmək tövsiyyə olunur. Beləliklə, elmi akademik ünsiyyətin nitq etiketləri elmi akademik ünsiyyətin janrlarını saxlamağa imkan verən nitq vahidlərinin və ifadələrin qurulması qaydalarının bütöv məcmusudur. [4.səh.89]

İşgüzar kommunikasiyada da nitq etiketi normalarına əməl edilməsi istənilən iş söhbətlərinin aparılmasının zəruri şərtidir.

İşgüzar etika – işgüzar idarəetmənin qayda və prinsipləridir. İşgüzar etika müəyyən edilmiş məqsədə çatmaq üçün idarəçi iş insanının tabe olduğu ideallar sistemidir.

İşgüzar etika maddi və mənəvi prinsiplər üzərində qurulmuşdur, hansi ki, dövlət və beynəlxalq normalar tərəfindən dəstəklənir. [5.səh.73]

Düzgünlük, təkəbbürlülük, mehribanlıq, ədalətlilik, nəzakət bunların hamısı işgüzar etikaya daxil olan keyfiyyətlər arasındadır. [6.səh.111]

İşgüzar mühitdə hər bir şəxs xidməti etika qaydalarına riayət etməlidir. Xidməti etika dedikdə– ümumi normalara riayət edilməsi və hər hansı bir şəxsin öz iş mühitində riayət etməli olduğu qayda və qanunlar nəzərdə tutulur.

Xidməti etikanın funksiyaları bunlardır [7.səh.39]

- fərdi deyil, kollektivin mənfəəti üçün çalışmaq
- düzgün psixoloji mühit yaratmaq
- yüksək iş keyfiyyətini təmin etmək
- kollektivin sosial problemlərini həll etmək.

İşgüzar etikaya əməl etmək həm fərdi işçinin, həm də təşkilatın peşəkarlılığının qiymətləndirilməsinin əsas məyarlarından biridir. [7.səh.50]

Nitq etiketləri dildə bir sistem təşkil edir. Həmin sistem bir sıra komponentlərdən ibarətdir: müraciət qaydaları, şad yaxud pis xəbərləri çatdırma qaydaları, dinləmə-danışma qulaqasma qaydaları, söhbətə qoşulma qaydaları, paralinqvistik vahidlərdən (mimika və jestlər) istifadə qaydaları.

Nitq etiketləri dilin müxtəlif səviyyələrində reallaşır: 1) leksik və frazeoloji səviyyədə - görüşənədək; 2) qrammatik səviyyədə - Sənə demək istəyirəm? Saat neçədir?; 3) üslubi səviyyədə - evfemizmlərdən istifadə - Allah rəhmət eləsin. 4) intonasiya səviyyəsində - nəzakətli, mədəni intonasiya - rica edirəm, qapını bağlayın! 5) orfoepik səviyyədə - Salam-əleykümsalam. 6) kommunikativ səviyyədə anacan, babacan.

Nitq etiketi formulu-sözün, frazanın və sabit ifadələrin elə müəyyənliyidir ki, danışıq üçün 3 mərhələ keçir: 1) nitq başlanır (təbrik, salam, salamlaşmaq, tanışlıq), 2) əsas hissə, 3) nitq başa çatır.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 9, 2025*
*Səh. 77-85*

Əlaqə qarşılıqlı münasibətin müəyyən olunmuş yeri nitq etiketinin işlənməsinə şərait yaradır: işgüzar məsləhət, müzakirə, teatr, axşam yeməyi, toplantı.

Hər bir xalqda, millətdə özünəməxsus etiket normaları formalaşır. Gərçəkləşən etiket normaları hər bir mədəni-dil qrupunda fərqli çalarları ilə çıxış edir.

Nitq etiketlərində müasirlik əsas şərtlərdəndir. Köhnə nitq ənənələri zaman keçdikcə yeniləşir, müasir dünyada, ən çox da şəhər mədəniyyətində informasiya və postindustral cəmiyyətdə nitq mədəniyyəti münasibətləri, əlaqələri köklü şəkildə dəyişir, bu dəyişməyə dini və mifoloji inam, sosial iyerarxiyalar öz Nitq etiketi formulu - sözün, təsirini göstərir.

Nitq etiketi bir neçə cəhətdən özünü doğrultmalıdır: Birincisi, xalqın dil-nitq fəaliyyətinin nəticəsində qərarlaşmış spesifik ifadələr yığını meydanda olmalıdır. İkincisi, həmin ifadələr yığını necəliyi dil kollektivinin üzvlərinə, o cümlədən danışan və dinləyənə məlum olmalıdır. Üçüncüsü, nitq etiketi ifadələrinin gözlənməsi və pozulması hallarını müəyyən edən qaydalar (nəyi demək olar və nəyi demək olmaz; necə demək olar və necə demək olmaz) mövcud olmalıdır. Dördüncüsü, nitq etiketləri, ifadələrinin konkret nitq şəraitləri ilə bağlı olduğunu başa düşmək zərurəti işləməlidir.

Gördüyümüz kimi, nitq etiketi geniş mənada linqvistik praqmatikanın ümumi problematikası ilə bağlıdır və praqmalinqvistik tədqiqatlar istiqamətində araşdırılmalıdır. Praqmatikada kommunikasiya aktına kommunikantların bu və ya digər məqsədlərə nail olması nöqteyinəzərindən baxılır. Deyim ayrılıqda yox, məhz həmin məqsədlərin kontekstində qavranılmalıdır. Məsələn, “Sizin saatınız var?" sualı saatın neçə olduğunu öyrənmək məqsədini güdür. Buna görə saatı demədən "Bəli, var" cavabı konteksti nəzərə almır və nəticədə nitq etiketi tələblərini pozur. Yaxud "Burada nə baş verir?" sualı (xüsusilə müəyyən kontekstdə) baş verənlərdən narazılığı bildirə bilər.

Nitq etiketlərinin təhlili göstərir ki, onların hər biri mürəkkəb bir prosesdir və özünəməxsus səciyyəvi xüsusiyyətlərə malikdir.

"Ən parlaq etiket nişanəsi" olan müraciət aşağıdakı kommunikasiya funksiyalarını daşıyır: həmsöhbətlər arasında əlaqənin yaradılması və adresatın diqqətinin cəlb edilməsi. Müraciətlər kommunikasiya aktının ən sabit, fəal formalarının birində - dialoqda özünü göstərir və ilk növbədə sosial-ictimai münasibətləri əks etdirir. Ünsiyyət prosesində kommunikasiya aktının iştirakçıları şəraitin səciyyəsindən, kommunikantların əlamətlərindən (cins, yaş, ictimai vəziyyət, qohumluq və ya tanışlıq əlaqələri və s.) asılı olaraq, yəni kimin, nə zaman, harada, kiminlə danışmasından asılı olaraq müəyyən müraciətlərdən istifadə edirlər.

Müraciət etiketlərində “Siz" əvəzliyi rəsmi nəzakətliliyi bildirir və aşağıdakı hallarda işlənir: 1. tanış olmayan, yaxud az tanış olan adresata müraciətdə; 2. rəsmi ünsiyyət şəraitində; 3. adresatla son dərəcə nəzakətli, ehtiyatla davrandıqda; 4. eyni səviyyəli və özündən böyük adresata müraciətdə (yaşına, mövqeyinə görə).

"Sən" əvəzliyi aşağıdakı hallarda istifadə edilir: 1. tanış adresata müraciətdə; 2. qeyri-rəsmi ünsiyyət şəraitində; 3. adresatla dost, məhrəm münasibətdə olduqda; 4. eyni səviyyəli və özündən kiçik (yaşına, mövqeyinə görə) adresata müraciətdə.

Gündəlik həyatımızda tez-tez qarşılaşdığımız situasiyalardan biri də üzristəmədir. Həmin situasiyada "üzr istəyirəm", "bağışlayın" kimi ifadələr geniş işləklik dairəsinə malikdir.

Müxtəlif situasiyalarda nitq etiketlərindən istifadə zamanı kommunikantların arasındakı qarşılıqlı əlaqə, onların sosial vəziyyəti, yaşı, təhsili və s. nəzərə alınır; gündəlik ünsiyyət təcrübəsində dil formalarının transformasiyalarından maksimum dərəcədə istifadə olunur.

Etiket bir neçə növə ayrılır, bunlardan əsasları aşağıdakılardır:
- xalq danışığı etiketi - vətəndaşların bir-biri ilə ünsiyyət zamanı gözlədikləri qaydaların, ənənə və şərtiliklərin məcmusu;
- saray etiketi - saraylarda monarxlar tərəfindən təyin olunmuş, kəskin reqlamentləşdirilmiş qaydalar və davranış formaları; s
- diplomatik etiket - müxtəlif diplomatik qəbullarda, görüş və danışıqlarda diplomat və digər rəsmi şəxslərin bir-biri ilə davranış qaydaları;
- hərbi etiket - hərbi xidmətçilərin bütün fəaliyyət sahələrindəki davranış normaları, orduda ümumi qəbul olunmuş qaydalar.

Nitq etiketi geniş mənada linqvistik praqmatikanın ümumi problemi ilə birləşir və praqmalinqvistika sahəsində öyrənilməlidir. Praqmatik cəhətdən dil kommunikasiyası aktına kommunikasiyanın iştirakçılarının müxtəlif məqsədlərə nail olması baxımından yanaşılır.

Nitq etiketi konkret mənada etiket münasibətlərində istifadə olunan dil vasitələri sistemidir. Bu sistemin elementləri dilin müxtəlif səviyyələrində reallaşır. Nitq etiketi universaliləri ehtiva edir - müxtəlif dillərdə istifadə olunur, bəzi hallarda tərcümə olunur, kalka kimi təqdim olunur. Məsələn: alman dilində "auf weidersehen" rus dilində - «do svidaniə». Ancaq əksər etiket formaları ənənəvidir, milli köklərə malikdir: «sağ ol», (Azərbaycan dilində), «spasibo», «xrani tebə qospod» (rus dilində).

Nitq etiketinin tanışlıq, salamlaşma, xudafizləşmə, üzrxahlıq, minnətdarlıq, xahiş, imtina, razılaşma, kompliment, təbrik və digər janrların leksik-semantik, leksik-qrammatik xüsusiyyətlərinin araşdırılması da əhəmiyyətlidir.

Nitq etiketi, ümumiyyətlə, etiketin sosial anlayışları ilə bağlı olub, konkret nitq aktında hansısa ünsiyyət registrinin seçilməsində tənzimləyici rol oynayır. İnsan cəmiyyəti verbal ünsiyyət yaratmaq, bu ünsiyyətin qarşılıqlı hörmət şəraitində başlanması, davam etməsi və bitməsi üçün kifayət qədər geniş dairəyə malik mərasim və formullar yaratmışdır. Bu formullar müəyyən normalara söykənir. Norma dil sisteminin gerçəkləşdirilməsinin müəyyən dövr üçün cəmiyyət tərəfindən qəbul olunmuş doğru, düzgün formaların, variantların sosial şəraitdən asılı olaraq

seçilməsini ehtiva edir. Norma anlayışı nitq davranışının təsviri və hörmət anlayışının təyinində mərkəzi anlayış, eləcə də çıxış nöqtəsidir

Nitq etiketinin müxtəlif sferaları vardır. Məişət nitq etiketi başqa sferadakı nitq etiketlərindən fərqlənir. Müəyyən peşə sahəsində funksionallaşan nitq etiketi bu peşə sahəsinə mənsub nitq xüsusiyyətlərinə malik olur. İnsan cəmiyyəti inkişaf etdikcə, insanlar birbirinə yaxınlaşdıqca, onların sosial mənsubluqdan asılı olmayaraq ünsiyyət prosesinə qoşulmasında məhdudiyyətlər aradan götürülür. Nəticədə məişət nitq etiketi ümumi nitq etiketi kimi formalaşır.

Nitq etiketləri milli spesifikaya malikdir. Hər bir xalqın düzgün nitq əxlaqı, davranışı sistem yaradır. Azərbaycan cəmiyyətində xüsusi dəyərə maliktaktikalı, son dərəcə yumşaq, xoşrəftar, xeyirxah, nəzakətli, səbirli, dözümlü, davamlı və s. nitq etiketləri formaları vardır. Həmin keyfiyyətlər öz əksini çoxsaylı atalar sözləri və məsəllərdə tapır, münasibətlərin, ünsiyyətin etik normaları ilə xarakterizə olunur.

Hər hansı ünsiyyət aktının başlanğıc, əsas hissə və son hissəsi olur. Etiket formalarının texniki reallizasiyası prosesində bir sıra formullar yaranır:

A) rəsmi formullar: Salam; gün aydın!

B) qeyri-rəsmi formullar: Nə xəbər var, nə ətər.

Etiket və etik normalar yazılı nitqlə bağlıdır: Hörmətli Prezidentimiz!

Nitq müraciətində ara, məsafə mühüm sosial vəziyyətlə bağlıdır.

Nitq etiketinə indi ictimai-siyasi sferada, kommunikasiya prosesində çox rast gəlmək olur.

Nitq etiketi-sosial məsələ və milli özünəməxsusluğu ilə. düzgün nitq, davranış, düzgün hərəkət tərzi ilə nizama salınır.

Azərbaycan nitq etiketi kontaktqurucu funksiyanı yerinə yetirir və manipulyasiya strategiyasında istifadə olunur.

Azərbaycan nitq etiketlərinin tipik situasiyada tipik vasitələri vardır. Bu vasitələr kommunikativ funksiyanı yerinə yetirir.

Azərbaycan nitq etiketləri - kommunikativ-nitq sistemində milli spesifik əxlaq, davranış tərzidir, harmoniyaya istiqamətlənmiş, kompleksiz insan münasibətləridir.

Nitq etiketi formalarından istifadənin amilləri: bəzi situasiya tipləri ilə əlaqədardır (rəsmi, qeyri-rəsmi, yarırəsmi). Situasiya tiplərinə tanışlığın dərəcəsi, insanların bir-birinə münasibəti, danışıqda iştirakçıların kəmiyyəti də təsir göstərir.

Nitq etiketinin əsasında nitq formulları dayanır, - bunlar davranış, əxlaq xüsusiyyətlərindən ibarətdir.

Yeni dövr etiketinin vətəni XIX əsrin İtaliyası hesab olunur. Rusiyada hazırda başa düşdüyümüz mənada etiketin yaranması və inkişafı I Pyotrun dövrü ilə əlaqələndirilir. Şərqdə də lap qədimdən dərin zəka sahibləri, dövrünün tanınmış ictimai xadimləri, maarifçilər, şairlər etika ilə bağlı fikir söyləyərkən danışıq etikası, nəzakətli hərəkət və nitq məsələlərinə toxunmuşlar. "Hələ erkən orta əsrlər dövründə Biruninin, Əbu Əli İbn Sinanın, Əbu Nəsr Farabinin, Sədi Şirazinin əsərləri, daha

sonralar Ruminin "Məsnəvi"si, Füzulinin "Divan"I kimi mənəvi dəyərli əsərlərdə nəzakətli danışıq və hərəkətlərdən də bəhs olunmuşdur". "Dədə Qorqud" dastanlarında da insanların mənəvi-əxlaqi keyfiyyətləri, etik davranışı ilə bağlı maraqlı faktlar mövcuddur. Burada xüsusilə o dövr üçün səciyyəvi olan müraciət formaları diqqəti cəlb edir. Onları nitq etiketinin ilk rüşeymləri hesab etmək olar. Yuxarıda qeyd olunan müəlliflərin əsərləri isə etika ilə bağlı məsələlərə, etik normalara həsr olunmuş, nitq etiketinin qayda və prinsiplərinə ünsiyyət etikası ilə əlaqədar toxunulmuşdur. Sonrakı dövrlərdə də bu ənənə davam etmiş, XIX-XX əsr Azərbaycan ədiblərinin əsərlərində bu səpkidə fikirlər öz əksini tapmışdır. Xüsusi etiket qaydalarının, normalarının tərtibi, hansı nitq davranışının, nitq formullarının norma, hansıların normadan kənar hesab edilməsinə maraq son dövrlərdə (XX əsrin sonları, XXI əsrin əvvəlləri) yaranmışdır.

Nitq etiketindən danışarkən onun etikaya münasibətinə aydınlıq gətirmək lazım gəlir. Çünki çox vaxt bu iki məfhum bir-biri ilə qarışdırılır. Fəlsəfə elminin əxlaq və mənəviyyat qaydalarını tədqiq edən bir sahəsi olan etikanı cəmiyyətdə özünü tərbiyəli aparmaq qaydalarını əks etdirən etiketlə qarışıq salmaq olmaz. Doğrudur, etiketin, o cümlədən nitq etiketinin etika məsələləri ilə bağlı cəhətləri var. Etiketin mahiyyətini təşkil edən tərbiyəlilik, nəzakətlilik, ədəb-ərkanı gözləmə, həmsöhbətə hörmət etik xarakterə malikdir. Bu xüsusiyyətlər cəmiyyət tərəfindən "yaxşı" və "əxlaqi" kimi dəyərləndirilir.

Etiket anlayışı cəmiyyətdə qəbul olunmuş nəzakətlilik və ədəb qaydaları sisteminə daxil olan davranış normalarıdır. Müasir etiket formaları qədim dövrdən indiyədək praktiki olaraq bütün xalqların adət və ənənələrini öz üzərində daşıyır. Bu davranış qaydaları öz-özlüyündə ümumidir, lakin bunlar yalnız müəyyən bir cəmiyyətin nümayəndələri tərəfindən deyil, müasir dünyada mövcud olan ən müxtəlif sosial siyasi sistemlərin nümayəndələri tərəfindən də gözlənilir. Hər bir xalqın nümayəndələri etiketə mənsub olduqları ölkənin ictimai-siyasi quruluşu, özünün milli psixologiyası, milli adət və ənənələri ilə şərtlənən düzəliş və əlavələr edir.

Müasir dövrdə davranış etiketinin tərkib hissəsi kimi nitq etiketinin volyuntiv funksiyasının aydınlaşdırılmasına da xüsusi diqqət verilir. Bu funksiya nitq aktında iştirak edən tərəflərdən birinin digərinə münasibətdə öz iradəsini ifadə etməsi ilə bağlıdır. Nitq prosesində xahiş, dəvət, təklif, məsləhət və bir sıra digər subyektiv iradi xüsusiyyətlərin ortaya çıxması özünü daim göstərir.

Nitqin əsas məsələləri nəzakətli davranış qaydalarına və etik normalara düzgün riayət edilməsini tələb edir. Nitqin mədəni səciyyə və keyfiyyətlərinə yiyələnmədən, etik-mədəni ünsiyyət prosesində iştirak etmək qeyri mümkündür. İstər yazılı, istərsə də şifahi nitq bacarıqlarından məhrum, yaxud onlara istənilən səviyyədə yiyələnməyən insan ünsiyyətdən kənar qalır. Ünsiyyət isə insanın mənəvi tələbatıdır

və bu təlabatın ödənilməməsi əsəb pozuntularına və daha ciddi xəstəliklərə səbəb olur. [8.səh.154]

Etiket qaydaları cəmiyyətdə insanların bir-birinə hörmət və ehtiramını, sevgi və rəğbətini göstərən mühüm amillərdəndir.

Etiket qaydalarının tətbigində cəmiyyətdə mövcud davranış və danışıq stereotipləri nəzərə alınmalıdır. [8.səh.154]

Məhz etik qaydaların şifahi və yazılı nitqdə gözlənilməsi müəyyən məqsədli nitqin səmərəliliyini və düzgün ifadə qabiliyyətini səciyyələndirir.

## Ədəbiyyat siyahısı

1. Abdullayev A.S Nitq mədəniyyəti və natiqlik sənəti. Bakı 1981. s 165 (s 65)
2. Abbasova S., Seyidova S., Məmmədova N. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı 2017. 232 s (s 97)
3. Hacıyeva İ., Seyidova S., Məmmədova N. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. Bakı 2023. 301 s. (s 197), (s 201)
4. Qarayeva H. Azərbaycan dilində nitq etiketlərinin öyrədilməsi məsələləri. Bakı 1999. 201 səh. (s 89)
5. Cəfərov V, Diplomatik etiket və nitq mədəniyyəti. Bakı 2009. 178 s. (73)
6. Məmmədov K, Tağıyeva T., Abasova S. İşgüzar yazışmalar və etiket. Bakı 2019. 124 s. (111)
7. A.A.Solanitsina. Peşə etikası və etiket. Bakı 2020. s159. (s 39), (s.50)
8. Cəfərova V. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. Bakı 2021. 172 s. (s 85), (s 154)
9. Quliyeva H. Peşə etikası və etiket. Bakı 2019. 58 s
10. Abdullayeva N. Nitq mədəniyyətinin əsasları. Bakı 2013.

## Kommunikasiya zamanı nitq etiketlərinin kateqoriya və xüsusiyyətləri.

**Dos.S.V.Abbasova**

## Xülasə

Kommunikasiya prosesinin əsasını danışıq etikası təşkil edir. Etika - insanların bir-biri ilə qarşılıqlı münasibətlərini, eləcə də cəmiyyətin digər insanlarla qarşılıqlı münasibətlərini tənzimləyən mədəni əxlaq normalarını əhatə edir.

Etikaya görə, əxlaq cəmiyyət daxilində insanların qarşılıqlı münasibətlərini idarə edir.

Nəzakətli danışıq, hərəkət və davranış mədəniyyətimizdə mühüm amillərdir. Bu hərəkətlər şəxsiyyətlərarası münasibətlərin inkişafında mühüm rol oynayır.

Nitq etiketi və ünsiyyət mədəniyyəti bir-biri ilə sıx bağlıdır.

Danışıq etiketinin öz normaları var. Bu bir sistemdir. Bu sistemin kateqoriyaları 1) xitab qaydaları, 2) dinləmə mədəniyyəti, 3) söhbətdə iştirak, 4) mimika və jestlərdən düzgün istifadədir.

Nitq etiketindən düzgün istifadə həm akademik, həm də işgüzar ünsiyyətin qurulmasında əsas elementdir.

İş dünyasında düzgün nitq etiketi peşəkar obrazın formalaşmasında əsas rol oynayır.

Akademik ünsiyyətdə nitq etiketi fikirlərin şərhinə, təqdimat qaydalarına, istinadlara, rəqibə etirazlara və bir çox başqa vəziyyətlərə tətbiq olunur. Yuxarıda göstərilən bütün kateqoriyalar və nitq etiketlərinin xüsusiyyətləri təqdim olunan məqalədə ətraflı öyrənilir.

## КАТЕГОРИИ И СВОЙСТВА РЕЧЕВЫХ ЭТИКЕТОВ ВО ВРЕМЯ КОММУНИКАЦИИ

**ДОЦ.С.В.АББАСОВА**

**РЕЗЮМЕ**

Разговорная этика является основой процесса общения.

Этика – охватывает культурные моральные нормы, которые регулируют взаимоотношения людей друг с другом, а также взаимоотношения общества с людьми.

Согласно этике, мораль регулирует взаимоотношения людей в обществе. Вежливая речь, действия и поведение являются важными факторами нашей культуры. Эти действия имеют большое значение в развитии межличностных отношений.

Речевой этикет и культура общения тесно связаны между собой.

Разговорный этикет имеет свои нормы.

Это система. Категории этой системы 1) правила обращения, 2)культура слушания, 3) участие в разговоре, 4) правильное использование мимики и жестов.

Правильное использование речевого этикета являются ключевым элементом установлении как академического, так и делового общения.

В деловом мире правильный речевой этикет играет ключевую роль в формировании профессионального имиджа.

В академическом коммуникации речевой этикет применяется при интерпретации идей, правилах изложения, ссылках, возражениях оппонентам и во многих других ситуациях.

Все перечисленные выше категории и признаки речевых тегов подробно изучены в представленной статье.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 9, 2025*
*Səh. 77-85*

## CATEGORIES AND CHARACTERISTICS OF SPEECH ETIGUETTE DURING COMMUNICATION.

**DOS.S.V.ABBASOVA**

**SUMMARY**

The basis of the communication process is conversational ethics/ Ethics encompasses the norms of speech and morality that regulate the relationship between people and each other, as well as society's relationchip with people.

According to ethics, morality regulates the interaction between society and people.

Polite speech and behavior are one of the important factors of our culture. Speech etiquette and communication culture are closely related to each other.

Conversational etiquette has its own norms. This is a system.
The categories of this system are 1) rules of address, 2) listening culture, 3) rules for joining a conversation, 4) rules for the correct use of facial expressions and gestures, etc.

The correct use of speech etiquette is a key element of both academic and business communication.

In the business world, proper speech etiquette plays a key role in shaping a professional image.

In academic communication, speech etiquette is used in the interpretation of ideas, presentation rules, references, objections to opponents, and in many other cases.

All the cateqories and features of speech tags listed above have been studied in detail in the presented article.

**Rəyçi: dos.S.Ə.Seyidov**